# I BMT Regional Turizm Konfransı keçirilib

**Qazaxıstanın Almatı şəhərində Avropada Turizmdə Qadınların Səlahiyyətləndirilməsi üzrə 1-ci BMT Regional Turizm Konfransı keçirilib.**




Dövlət Turizm Agentliyindən bildirilib ki, tədbirdə qadınların liderliyi, sahibkarlıq fəaliyyəti, rəqəmsal bacarıqlar, turizm sektorunda çətin stereotiplər, qadınların iqtisadi və sosial səlahiyyətləndirilməsinə maneələrin aradan qaldırılması yolları müzakirə olunub.

Azərbaycanı bu beynəlxalq konfransda Dövlət Turizm Agentliyinin Qoruqları İdarəetmə Mərkəzinin İdarə Heyəti sədrinin müavini Sədaqət Davudova təmsil edib.

O, "Turizm idarəçiliyində gender bərabərliyi" mövzusunda keçirilən panel müzakirəsində Azərbaycan təcrübəsini təqdim edib. S.Davudova Azərbaycanda qadınların turizm və mədəni irs sektorunun inkişafında fəal rolundan danışıb. Bildirilib ki, hökumət təşəbbüsləri BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin 5-cisi olan gender bərabərliyi istiqamətində həyata keçirilən tədbirlərlə uyğunluq təşkil edir.

Azərbaycan. - 2025.- 25 oktyabr (№229).- S.10.